**UOT: 94(479.24)**

# CƏNUBİ QAFQAZIN ETNİK-MİLLİ MÜNAQİŞƏLƏRİNİN TARİXİ KÖKLƏRİ VƏ MÜASİR DÖVRDƏ MÖVCUD PROBLEMLƏR

**Şubay Nuruzadə**
**Tarix üzrə fəlsəfə doktoru, dosent**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
**Bakı, Azərbaycan**
**shubay.nuruzade@gmail.com**
**Orcid: 0009-0008-9203-588X**

**Xülasə**

Məqalədə tarixin müəyyən mərhələlərində ermənilərin Cənubi Qafqaz regionunda sistemli şəkildə yerləşdirilməsi, "Böyük Ermənistan" - "dənizdən-dənizə" dövlət yaratmaq naminə separatçı və terrorçu qrupların hazırlanmağa başlaması ardıcıl şəkildə araşdırılır, ermənilərin bu mürtəce siyasətinin tarixi kökləri xronoloji, ardıcıl araşdırmaya əsaslanaraq problemə obyektiv münasibət bildirir. Məqalədə ərəb xilafətinin yaranması zamanı ərəb-erməni əlaqələrinin qurulmasından, ermənilərin Cənubi Qafqaza dəvət edilməsindən, ermənilərlə Cənubi Qafqazın regional dövlətləri arasında gizli əlaqələrin yaradılmasından, erməni missionerlərinin görüşündən də bəhs edilir. 1701-ci ildə I Pyotr ilə İrandan 40 min erməni ailəsinin, Osmanlı İmperiyasından isə 84 min erməni ailəsinin sonda Azərbaycan ərazisinə köçürülməsi XVIII-XIX əsrin birinci yarısı, Birinci Dünya Müharibəsi illərində Antanta və Üçlü Alyans blokları dövlətləri arasında ziddiyyətlərin antaqonizmə çevrilməsində "erməni amili"nin rolu haqqında, 1923-cü ildə qaldırılan "erməni məsələsi" haqqında- 1953-cü il, XX əsrin 80-ci illərində Cənubi Qafqazda etnik, milli münaqişələrin yeni mərhələsi, Dağlıq Qarabağın işğalının başa çatması haqqında Ermənistan Silahlı Qüvvələri, gürcü-abxaz münaqişəsinin silahlı toqquşmalara və müharibəyə çevrilməsi, 1994-cü il mayın 12-14-də Moskvada atəşkəs sazişinin imzalanması haqqında. Gürcü-abxaz münaqişəsi zamanı (1918-1995) 495 silahlı toqquşma baş verib. 80-90-cı illərdə tədricən baş verən və müharibəyə çevrilən etnik münaqişələrin transformasiyası nəticəsində. XX əsrdə Cənubi Qafqazda Ermənistan Silahlı Qüvvələrinin Azərbaycan Respublikasına hərbi təcavüzü nəticəsində 30 min insan həlak olub. Və təxmini məlumatlara görə, gürcü-abxaz və gürcü-osetin münaqişəsinin müharibəyə çevrilməsi nəticəsində (2008-ci ilin avqust ayına qədər) 12 min gürcü, 3500 abxaz, 2700 osetin həlak olub. Nəhayət, 1992-ci il Daqomıs müqaviləsi kimi Cənubi Qafqazda qısa fasilələrdən sonra davam edən bu uzun müharibələri dayandırmaq. 1994-cü il mayın 14-də Moskvada atəşkəs rejiminin yaradılması haqqında Saziş bağlandı. BMT-nin 400-dən çox hərbi və mülki şəxsi Zuqdidi, Qali və Yuxarı Kadorda yerləşdirilmişdi. Bütün hadisələrin gedişi göstərdi ki, Gürcüstan Respublikasının bu probleminə ABŞ, Fransa və Rusiyanın münasibəti nəzərəçarpacaq dərəcədə fərqlidir. 26 avqust 2008-ci ildə Rusiya Federasiyası Abxaziya və Cənubi Osetiyanın müstəqilliyini rəsmən tanıdı. Beləliklə, rəsmi Rusiya da dolayısı ilə Dağlıq Qarabağdakı erməni separatçı rejiminin təcavüzkar siyasətinə haqq qazandırıb. Obyektiv təhlilimiz onu deməyə əsas verir ki, beynəlxalq ictimaiyyət ATƏT-in Minsk qrupunun üzvü olan dövlətlərin fəaliyyətsizliyini tanımalıdır. Cənubi Qafqazda mövcud olan etnik və milli münaqişələr müasir dünyanın tələblərinə uyğun tənzimlənməli və aradan qaldırılmalıdır.

**Açar sözlər:** Məqsədli miqrasiya, Azərbaycan, Gürcüstan, seperatizm, zorakılıq, terrorizm, seperatizmin ideoloji mənbələri.

# HISTORICAL ROOTS OF ETHNIC-NATIONAL CONFLICTS OF THE SOUTH CAUCASUS AND CURRENT PROBLEMS IN MODERN TIMES

**Shubay Nuruzade**
**Doctor of philosophy in history, Ass. professor**
**Azerbaijan State Pedagogical University**
**Baku, Azerbaijan**

**Summary**

The article examines the planned settlement of Armenians in the South Caucasus at certain stages of history, the parallel preparation of separatist and terrorist groups for the creation of a "Greater Armenia" state from sea to sea, and the historical roots of this reactionary policy attitude is expressed.At the same time, relations with the Arabs in the process of Caliphate formation since the Middle Ages, their invitation to the South Caucasus, secret relations with the regional states of the South Caucasus, meetings of Armenian missionaries with Peter I, in the fist half of XVIII. The resettlement of Armenian families from Turkey, the Armenian factor in the antagonism of the conflict between the "Union of Three" and the "Entente Bloc" during World War I, and finally the exaggeration of the so-called "Armenian issue". The entry of a new stage of ethnic and national conflicts in the Caucasus, the end of the occupation of the Armenian Armed Forces in Nagorno- Karabakh, the transformation of the Georgian-Abkhaz conflict into a war without armed conflict, and finally the explorung and objective analysis of the ceasefire agreement signing in Moscow on May 12-14, 1994 is discussed. At the same time, the UN Security Council adopted six resolutions on the conflict in Georgia and four on the Armenian-Azerbaijani conflict over Nagorno-Karabakh. Research has further clarified, that the South Caucasus has become a significant geopolitical platform, drawing the priority interests of various major powers. Consequently, in some instances, small, localized conflicts have escalated into major wars. The "Security Pact in the South Caucasus" was facilitated by the ceasefire agreement signed by Azerbaijan and Armenia on May 16, 1994, under the Bishkek Protocol. Notably, countries with geopolitical interests in the South Caucasus have shown varied reactions to these proposals: Russia has supported of Armenian stance, while the USA and European countries have positively evaluated the initiatives of Azerbaijan, Armenia, and Georgia. Furthermore, Turkey, Georgia, and Azerbaijan signed the "Pact of Security and Stability in the Caucasus" in Tbilisi in January 2020. With the escalation of separatism in the South Caucasus into large-scale warfare, Russian President Boris Yeltsin issued a decree in early 1993 banning arms sales to conflict zones. It should be noted, that earlier, on May 15, 1992, during a meeting of the CIS heads of state in the Uzbek capital of Tashkent, an agreement was reached on the principles and rules for fulfilling the "Treaty on Conventional Armed Forces." A) Thus, the article analyzes the political significance of the military victory achieved in Karabakh II wars from a modern perspective and objectively addresses the discussions held on an international scale.

**Key words:** South Caucasus, Karabakh, Iran, Moscow

## ИСТОРИЧЕСКИЕ КОРНИ ЭТНО-НАЦИОНАЛЬНЫХ КОНФЛИКТОВ ЮЖНОГО КАВКАЗА И ПРОБЛЕМЫ, СУЩЕСТВУЮЩИЕ В НАШЕ ВРЕМЯ

**Шубай Нурузаде**
**Доктор философии по истории, доцент**
**Азербайджанский Государственный Педагогический Университет**
**Баку, Азербайджан**

**Резюме**

В статье последовательно исследуется планомерное размещение армян в южнокавказском регионе на определенных этапах истории, начало подготовки сепаратистских и террористических групп во имя создания «Великой Армении» - государства «от моря до моря», рассматриваются исторические корни этой реакционной политики армян, на основе хронологического, последовательного исследования выражается объективное отношение к проблеме. В статье говорится также об установлении арабо-армянских связей в эпоху формирования Арабского Халифата, о приглашении армян на Южный Кавказ, о создании тайных связей армян с региональными государствами Южного Кавказа, о встрече армянских миссионеров с Петром I в 1701 году, о переселении 40 тысяч армянских семей из Ирана и 84 тысяч армянских семей из Османской империи на территорию Азербайджана в конце XVIII-первой половине XIX вв., о роли «армянского фактора» в превращении противоречий между государствами блоков «Антанта» и «Тройственный Союз» в антагонизм в годы I Мировой войны, об «армянском вопросе», поднятом в 1923-1953 гг., о новом этапе этнических, национальных конфликтов в 80-х годах XX столетия на Южном Кавказе, о завершении завоевания Нагорного Карабаха Вооруженными Силами Армении, о превращении грузино-абхазского конфликта в вооруженные столкновения и войну, о подписании

в Москве 12-14 мая 1994 года соглашения о прекращении огня. В годы грузино-абхазского конфликта (1918-1995 гг.) произошло 495 вооруженных столкновений. В результате превращения этнических конфликтов, поэтапно происходивших и превратившихся в войну в 80-90-ых гг. XX столетия на Южном Кавказе, военной агрессии Вооруженных Сил Армении в отношении Азербайджанской Республики погибло 30 тысяч человек. А по приблизительным данным в результате превращения грузино-абхазского и грузино-осетинского конфликта в войну (до августа 2008 г.) погибло 12 тысяч грузин, 3 5 00 абхазов, 2700 осетин. Наконец, для приостановления этих длительных войн, продолжавшихся на Южном Кавказе после кратковременных перерывов, в качестве Дагомысского соглашения 1992 года. 14 мая 1994 г. в Москве было заключено Соглашение об установлении режима приостановления огня. В Зугдиди, Гали, Верхнем Кадоре были размещены более 400 военных и гражданских лиц ООН. Ход всех событий показал, что отношение к этой проблеме Республики Грузия США, Франции и России заметно отличаются. 26 августа 2008 года Российская Федерация официально признала независимость Абхазии и Южной Осетии. Таким образом, официальная Россия косвенно оправдала также завоевательную политику армянского сепаратистского режима Нагорного Карабаха. Наш объективный анализ дает нам основание утверждать, что Международное сообщество должно признать бездействие государств, входящих в Минскую группу ОБСЕ. Этнические, национальные конфликты, существующие на Южном Кавказе, следует регулировать, устранить в соответствии с требованиями современного мира.

**Ключевые слова:** Южный Кавказ, Карабах, Иран, Москва

**Aktuallıq.** Müasir dövrümüzdə Cənubi Qafqaz regionunda baş verən 44 günlük Vətən müharibəsində qazanılmış Qələbədən sonra Ermənistanın və onun bəzi Qərb havadarlarının yeni münaqişə ocağı yaratmaq meyllərinin tarixi köklərini araşdırmaq mövzunun aktuallığını göstərir.

**Annotasiya.** Məqalədə XX əsrin 80-90-cı illərində Cənubi Qafqazda etnik-milli münaqişələrin tarixi kökləri, Qarabağda erməni seperatçılarının təşkilatlanması, birinci Qarabağ müharibəsinin başlanması, gedişi və nəticəsi tədqiq olunur, ümumiləşmələr aparılır, ATƏT-in Minski qrupuna daxil olan dövlətlərin müşahidəçilik fəaliyyətinə tənqidi yanaşılır. Plana uyğun olaraq Ermənistanın işğalçılıq siyasətinə tarixi faktlarla müasir baxımdan münasibət bildirilir, gürcü-abxaz münaqişəsi araşdırılır, Abxaziyanın, Cənubi Osetiyanın Rusiyanın tabeliyini qəbul etməsi, Gürcüstanın ərazi bütövlüyünün pozulması obyektivcəsinə təhlil edilir və münaqişənin müasir tələblərə uyğun tənzimlənməsinin elmi təhlili verilir. Bununla yanaşı II Qarabağ müharibəsinin başlanması 2020-ci ildə 44 günlük Vətən müharibəsinin başlanması və gedişi araşdırılır, "Zəfər" yürüşü zamanı Prezident, Ali Baş Komandan İlham Əliyevin "qalib gəlmək" strategiyası və taktikasına tarixi baxımdan münasibət bildirilir.

**Metod.** Məqalədə tarixi-müqayisəli, təsviri və qarşılaşdırılma metodlarından istifadə edilmişdir.

**Giriş.** Cənubi Qafqaz regionu bəşər tarixinin müxtəlif mərhələlərində istilaçı imperiyaların diqqətini cəlb etmiş, Çin tarixində deyildiyi kimi dünya tarixçiləri həmin hərbi ekspansiya dövrünü "Vuruşan padşahlıqlar" dövrü adlandırmışlar [8, 57]. Cənubi Qafqaza maraqlar təkcə region dövlətləri tərəfindən deyil, həmçinin Avropadan, xüsusilə e.ə. IV-III əsrlərdə dünya dövlətlərinin Qafqaz siyasəti işğalçılıq rəqabətinə çevrilmişdi. E.ə 336-cı ildən 323-cü ilə qədər Makedoniyalı İsgəndərin talançı yürüşləri Cənubi Qafqazda da işğalçılıq izləri qoydu. Yunan-İran müharibələri zamanı Cənubi Qafqaz da müharibə meydanına çevrilmiş regionlardan idi. Bununla yanaşı e.ə IV əsrin sonu - III əsrin əvvəllərində Albaniya dövlətinin yaradılması region dövlətlərində siyasi qısqanclığı bir qədər də artırmışdı. Nəhayət, 262-ci ildə Albaniya Sasanilərdən asılı vəziyyətə düşdü. Tarixin bu dönəmində Cənubi Qafqazda gedən proseslərdən bəhrələnən ermənilər Fərat çayı boyu köçəri yaşadıqları ərazilərdən Cənubi Qafqazın Qərb ərazilərinə gələrək yüksəkliklərdə məskunlaşmağa başladılar. Özlərinə strateji mövqe seçməklə münbit torpaqlarda, bol su mənbəyi olan yerlərdə, geniş çəmənliklərdə və otlaqlarda məskunlaşaraq köçəri həyat tərzindən oturaq həyat tərzinə keçdilər. Beləliklə, Cənubi Qafqazın dağlıq ərazilərində məskunlaşan ermənilər bu regiona özləri ilə bərabər hiyləgərlik, təxribatçılıq, qonşu xalqlarla düşmənçilik, riyakarlıq, nankorluq və digər mürtəce xüsusiyyətləri də gətirdilər, qonşu xalqların torpaqlarına göz dikdilər, özlərini bu torpaqların sahibi kimi apardılar. Cənubi Qafqazda etnik-milli münaqişə ocaqlarının

yaradılması problemini müasir baxımdan araşdırarkən bir daha belə qənaətə gəlmək olur ki, əksər münaqişələrin törədilməsində erməni kilsəsinin və erməni missonerlərinin bilavasitə rolu olmuşdur. Erməni kilsəsi "Böyük Ermənistan" ideyasını formalaşdırmaqla yanaşı onun reallaşdırılmasında əsas təşkilatçı idi. Yunan coğrafiyaşünası Strabon ermənilərin Cənubi Qafqazda məskunlaşmaları haqqında həmişə olduğu kimi mükəmməl məlumat verərək yazırdı ki, "onlar (ermənilər-Ş.N) Kaspiananı, Favnitidunu, Boseronedununu, iberlərdən isə Pariazara yüksəkliklərini, Xorzenununu və Qaqarenanini işğal edib ələ keçirmişlər ki, bu ərazilər də Kür çayının o biri sahilində yerləşirdi" [8, 13]. Ermənilərin Cənubi Qafqaz regionunda yerləşmələri, Azərbaycan və Gürcüstan torpaqlarında məskunlaşdırılmaları strateji mahiyyət kəsb etməklə planlı şəkildə həyata keçirilirdi ki, burada da çar Rusiyası amili mühüm rol oynayırdı.

Ermənilərin Cənubi Qafqazda yerləşdirilməsinin siyasi-strateji mahiyyəti ondan ibarət idi ki, əvvəla say tərkibinə görə regionda azərbaycanlılar aborgen xalq kimi çoxluq təşkil etməklə qonşu Türkiyə ilə münasibət məsələsində daha yaxın olmaqla yanaşı həmçinin qan qohumluğunun mövcudluğu, əlbəttə, digər region dövlətlərini narahat etməyə bilməzdi. Bununla yanaşı Cənubi Qafqazda islam faktorunun tədricən genişlənməsi də narahatlıq formalaşdıran amillərdən idi. Məhz bu səbəbdən Gürcüstanda 500 min nəfərə qədər azərbaycanlının yaşaması, Türkiyənin Cənubi Qafqazda strateji mövqelərinin sarsıdılması strategiyasının reallaşdırılması məqsədilə erməni faktoru Cənubi Qafqazda türk mənşəli xalqların birliyinin pərakəndəliyinə nail olunması üçün ən əlverişli amil və vasitə ola bilərdi. Gürcüstanın Cavaxeti, Axalkələk və digər bölgələrində yerləşdirilmiş ermənilər gürcülərlə azərbaycanlılar arasında nifaq salmaq məqsədilə Gürcüstanın idarəçilik orqanlarına tez-tez danoslar yazır və onları elmi əsası olmayan ideyalarla inandırmağa çalışırdılar ki, guya "Gürcüstandakı türk mənşəli etnonimlər xristianlığa yaraşmır və onları dəyişdirmək lazımdır". Çox təəssüflər olsun ki,ermənilər bəzən belə mürtəce əməllərini həyata keçirə bilirdilər. Xatırladılması vacib olardı ki, görkəmli filoloq alim V.İsrafılovun tədqiqatlarına istinadən deyə bilərik ki, "Borçalı" sözü ehtimala görə "Boruçala", "Borçala", "Boşçala" söz birləşmələrindən yox, bu torpağın ilk sakinləri və sahibləri Barsillər - Boracoğluların qarapapaq türklərinin adından götürülmüşdür. Onlar oğuz, qıpçaq, tərəkəmə, yörük adları ilə Borçalınm əzəli tarixinin yaddaşına həkk olmuşlar. Beləliklə, Tiflisdən Cənub tərəfdə yerləşən Borçalıda da münaqişə ocağı yaratmağı qarşılarına məqsəd qoymaqla Gürcüstanda münaqişə coğrafiyasını genişləndirmək və Cənubi Qafqazı etnik-milli münaqişələri gərginləşdirmək siyasəti yürüdürdülər. Lakin X.Ariyanın belə mürtəce xarakterli missiyası uzun sürmədi. O Dərbənd yaxınlığında baş verən döyüşlərin birində öldürüldü. Ermənilərin Cənubi Qafqazda məskunlaşdırılmasmın intensivləşdirilməsi ilə erməni missionerlərinin təbliğat briqadalarının çarizmin Qafqaz siyasətinə bəzək-düzək vuraraq, İranda, Türkiyədə, Rusiyada fəal təbliğat işi aparmalarına şərait yaradırdı. Məhz bu siyasətin nəticəsi idi ki, 1813-cü il Gülüstan, 1828-ci il Türkmənçay müqavilələrinin bağlanmasından sonra İrandan 40 min,Türkiyədən isə 84 min erməni ailəsi Cənubi Qafqazın bir çox regionlarına köçürüldü. Çarizmin köçürmə siyasəti nəticəsində ermənilər Azərbaycanın Qarabağ, Şamaxı, Şəki, Oğuz, Qəbələ, Quba, Gəncə, Goranboy, Gülüstan və digər bölgələrində yerləşdirildi. Onlar münbit torpaqlarda yerləşdirilməklə yerli vətəndaşlardan da yüksək hüquq və imtiyazlara malik oldular. Balkanlardan və Mesopotamiyadan köçürülən ermənilər isə Gürcüstanın qərb zonalarında yerləşdirildi. Borçalıda, Axalkələkdə, Cavaxetidə, Zuqdididə, Pankisidə məskunlaşdırılmış ermənilər sonralar Gürcüstanda, Azərbaycanda və digər regionlarda gizli separatçı qruplar yaratmağa nail oldular. Onların proqramlarının başlıca mahiyyəti "Böyük Ermənistan", "Dənizdən-dənizə" erməni dövlətinin yaradılmasından ibarət idi. Zəngəzur, Dərələyəz və Vedibasarda ermənilərin Cənubi Qafqaza köçürülməsi prosesi uzun müddət davam etmişdir. Türkiyə ərazisindən köçürülən 300 minə qədər erməni həmçinin İrəvan, Dağlıq Qarabağ, Naxçıvan və Ordubadda yerləşdirilmişdi [9, 10]. Beləliklə, ermənilərin Cənubi Qafqaza köçürülməsi prosesinin sürətlənməsi yerli xalqları narahat etməyə başlamışdı. Özlərinin strateji mövqelərini gücləndirən ermənilər yerli xalqlara qarşı təxribatlar törədir, süni şəkildə münaqişələr yaratmağa çalışır, ən iyrənc mübarizə formalarından istifadə edir, hətta bu cür mürtəce əməllərin həyata keçirilməsində erməni qadınlarının "xidmətlərindən" də bəhrələnirdilər. Böyük gürcü mütəfəkkiri İlya Qroqorieviç Çavçavadze ermənilərin Qafqaza, xüsusilə Cənubi

Qafqaza köçürülməsini həmin dövrdə “ gələcək bəlaların, gələcək fəlakətlərin, ən başlıcası isə Qafqaz ümumi məkanının münaqişələr, müharibələr” regionuna çevrilməsinə zəmin hazırlaması kimi xəbərdarlığı böyük mütəfəkkirin uzaqgörənliyi idi. Odur ki, İ.Q.Çavçavadze hələ 1894-cü ildə Çar III Aleksandra göndərdiyi məktubda yazırdı: “Əlahəzrət, mərkəzi rus torpaqlarında ermənilərin məskunlaşmasına icazə verməyin. Onlar elə tayfadır ki, bir neçə il bu torpaqlarda yaşayandan sonra dünyaya hay-küy salaraq deyəcəklər ki, buralar bizim dədə-baba torpaqlarımızdır [1, 80]. Ermənilərin Cənubi Qafqazda məskunlaşmaları haqqında xronoloji ardıcıllıqla araşdırmalar aparıldıqda Heredotun, Strabonun, Plibinin, Puşkinin, Çavçavadzenin, M.Axundovun və başqa dünya mütəfəkkirlərinin ermənilər haqqında yaratdıqları mənfi obrazlar müasir dövrdə də xarakterini, xüsusiyyətini, məntiqi mahiyyətini saxlamaqdadır. 1890-cı ildə “Daşnaksütyun”, sonralar “Qmçak”, “Krunk”, “Asala” və başqa erməni daşnak-terrorçu təşkilatları XX əsrin əvvəllərində Cənubi Qafqazda bolşevik sıralarına daxil olaraq, milli-demokratik qüvvələrə qarşı Şamaxıda, Qubada, Bakıda, Lənkəranda və Azərbaycanın müxtəlif regionlarında qətllər törətdilər. Beləliklə, XX əsrin əvvəllərində başlanmış qətllər sovet-siyasi sisteminin bərqərar olunması milli münaqişələrin açıq formadan gizli formaya keçməsi ilə nəticələndi. SSRİ-nin qüdrətli çağlarında Cənubi Qafqazda milli münaqişələr qismən dayandırılaraq seperatçılarm mürtəce əməlləri qapalı şəraitə keçsə də, bu hal müvəqqəti xarakter daşıyırdı. Lakin 1978-ci ilin may-sentyabr aylarında Abxaziyanın seperatçı qüvvələri yenidən fəallaşan zaman Dağlıq Qarabağda da erməni seperatçıları fəallaşdılar. Belə bir şəraitdə həm Azərbaycanda, həm də Gürcüstanda aparılmış araşdırmalardan məlum oldu ki, həm erməni, həm də abxaz, acar, osetin, seperatçıları daxildəki və xaricdəki antisovet qüvvələri tərəfindən idarə olunur, maliyyə dəstəyi alır və Cənubi Qafqazda etnik-milli münaqişələrin silahlı toqquşmaya, müharibəyə çevrilməsi planının reallaşmasına nail olmağı qarşısına məqsəd qoyublarmış. Odur ki, 1978-ci il hadisələri qismən həllini tapdı, amma aparılan profilaktik tədbirlər sona çatdırılmadı. Ona görə ki, SSRİ-yə qarşı hələ 1949-cu ildə Kanadada keçirilən məxfi iclasda ABŞ başda olmaqla “daxildən parçalanma” layihəsi müzakirə edilərkən Avropa dövlətlərinin və antisovet meyilli dövlətlərin rəhbərləri bu məqsədlə 1 trilyon 600 milyard vəsaitin toplanmasını öz öhdələrinə götürdüklərinə görə XX əsrin 70-ci illərində baş qaldırmış milli münaqişələrin yatırılmasında maraqlı idilər. SSRİ-nin rəhbərlərinin sıralarında xariclə işləyən, satılmış rəhbərlər də az deyildi. Hətta bu haqda M.S.Qorbaçov SSRİ-ni dağıtdıqdan sonra etiraf etmişdir ki, “ Bizim məqsədimiz kommunizmi məhv etmək idi” [9, 122]. SSRİ miqyasında, xüsusilə Cənubi Qafqazda etnik- milli münaqişələrin qapalı formadan açıq formaya keçməsi üçün sovet-siyasi sisteminin rəhbərliyində əvvəlcədən nəzərdə tutulmuş və XX əsrin 70-ci illərinin axırlarında reallaşması planlaşdırılan hadisə nəhayət ki, baş verdi. 1985-ci ilin mart ayında hakimiyyəti ələ keçirən M.S.Qorbaçov “ demokratik islahatlar” pərdəsi altında nəhəng bir sistemin dağılmasına rəhbərlik etməyə başladı. Cənubi Qafqazda, Orta Asiyada, Moldovada, Baltikyanı respublikalarda “Gizli iqtisadiyyat”a rəhbərlik etmiş, dövlət əmlakını mənimsəmiş və talan etmiş, cəzaçəkmə müəssisələrində “qanuni oğru” adı almış adamlara geniş şərait yaradıldı. Xalqın vəsaiti hesabına yaradılmış kolxozların, sovxozların əmlakı ayrı-ayrı adamlar tərəfindən talandı, cəmiyyətdə hakimiyyətə qarşı süni narazılıqlar və nifrət formalaşdırıldı. Mərkəzdən idarə olunan anarxistlər mütərəqqi idarəçilik sistemini dağıtmaq, xalq ziyalılarını nüfuzdan salmaqla varlanmaq, silah-sursat toplamaq, milli regionlarda süni münaqişələri qızışdırmaq, siyasi sistemin süqutu üçün xalqı meydanlara toplamaqla seperatçılıq fəaliyyətini daha da genişləndirir, vətəndaş həmrəyliyini pozur və vətəndaş müharibəsinin süni şəkildə yetişdirilməsinə cəhd göstərirdilər. Nəticədə M.S.Qorbaçovun dağıdıcılıq fəaliyyəti ilə B.Yeltsinin şovinist ideoloji-siyasi fəaliyyəti paralelləşmiş oldu. Mərkəzin liberallığından və müşahidəçilik taktikasından istifadə edən təxribatçılar Cənubi Qafqazda mürtəce seperatçılıq əməllərini çəkinmədən həyata keçirməyə başladılar. 1987-ci ildə müasir Ermənistan ərazisində azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti həyata keçirilməyə başlandı. Az bir müddətdə 240 min nəfərdən artıq azərbaycanlı Ermənistan adlandırılan Qərbi Azərbaycandan qovularaq doğma vətənlərindən didərgin salndı. Ermənistanda etnik təmizləmə mürtəce siyasəti başa çatdırıldıqdan sonra Dağlıq Qarabağ Muxtar Vilayətində erməni mənşəli seperatçılar Ermənistana birləşmək haqqında xalq arasında antiazərbaycan təbliğatını gücləndirən

vasitələrə əl atır, seperatçıların vərəqlərini yayır, mərkəzi hakimiyyətə tabe olmamağa çağırışlar edir, vətəndaş itaətsizliyini nümayiş etdirir, xalqlar arasında süni düşmənçiliyə zəmin hazırlayırdılar. 1988-ci il fevralın 8-də ermənilərin "Daşnak", "Qmçak", "Asala" və digər terrorçu, seperatçı təşkilatlarının liderləri, o cümlədən Z.Balayan, S.Ohanyan, S.Sarkisyan, R.Köçəryan və başqaları Xankəndində (Stepanakertdə) əhalini etiraz nümayişinə topladılar. Seperatçı ermənilər əhalinin əksəriyyətini mitinqə qorxudaraq gətirmiş, mitinqdə iştirak etməkdən imtina edənlərin isə evləri yandırılmış, qızları, qadınları girov götürülmüş, erməni silahlı dəstələrinə "xidmət" göstərmək üçün həmin dəstələr meşələrdə və dağlıq ərazilərdə zorla yerləşdirilmişdi. Dağlıq Qarabağda törədilən erməni terroru, seperatçıların Azərbaycan hakimiyyətinə qarşı ixtişaşları və təxribatları M.Qorbaçovu heç də narahat etmədiyinə görə tədricən region terrorçuluq, separatçılıq əməllərindən silahlı toqquşmalara keçməkdə idi. Mərkəzin Dağlıq Qarabağda gedən proseslərə biganə qalması, ermənilərin gündən-günə daha da silahlanması, azərbaycanlılardan isə hətta ov tüfənglərinin də yığılması M.Qorbaçovun ermənipərəst mövqeyini açıq şəkildə göstərməkdə idi. Ermənistanda ermənilərin etnik təmizləmə siyasəti başa çatdıqdan soma Dağlıq Qarabağda erməni silahlı birləşmələrinin Laçın, Qubadlı, Kəlbəcər, Şuşada silahlı təxribatları açıq xarakter aldı. M.Qorbaçovun liberallığını görən seperatçılar Gürcüstanda mərkəzi hakimiyyətə qarşı açıq şəkildə çıxmağa başladılar. Beləiklə, Cənubi Qafqazın digər bir respublikasında, yəni Gürcüstanda XX əsrin 50-ci illərindən etibarən gürcü-abxaz, gürcü-Cənubi Osetiya, gürcü-acar və digər etnik- milli münaqişələrin fəsadları mərhələ-mərhələ genişlənməyə başladı. Hələ 1987-ci ildə Ermənistanda azərbaycanlılara qarşı ermənilər tərəfindən başlanmış etnik təmizləmə siyasətinə bənzəyən seperatçı əməllər Gürcüstanın Abxaziya və Cənubi Osetiya, Acariya vilayətlərində də başlandı. 1989-cu il martın 18-də Lıxna qurultayında 30 min adam Gürcüstanın tərkibindən çıxaraq müttəfiq respublikaların malik olduğu statusun onlara da şamil edilməsini irəli sürdülər. Nəhayət ki, Cənubi Qafqazın digər bir respublikasında da separatçı ünsürlər süni münaqişə ocağı yaratdılar. 1989-cu ilin iyul ayında Abxaziyada mütərəqqi fikirli ziyalıların təşəbbüsü ilə siyasi diskussiyalar aparıldı. Lakin Abxaziya Ali Sovetində keçirilən müzakirələr zamanı seperatçılar və digər siyasi qüvvələr arasında qütbləşmələr baş verdi. Seperatçıların bir qismi Gürcüstanın tərkibindən siyasi yolla çıxmaq, digər qüvvələr isə silahlı yolla problemin həllini tələb edirdilər, abxazların danışıq prosesi başa çatmamış 1989-cu il iyulun 15-16-da gürcü-abxaz döyüş cəbhələrində qanlı toqquşmalar baş verdi. Abxaziya tərəfdən 16 nəfər həlak oldu. Bu regionda etnik-milli münaqişələrin daha da gərginləşməsini, xüsusilə Cavaxetidə ermənilərin, Abxaziyada abxazların, Cənubi Osetiyada osetinlərin, həmçinin açarların və digər seperatçı qüvvələrin daha da fəallaşmalarmı nəzərə alaraq Gürcüstan hökuməti, xüsusilə dövlət rəhbəri Z.Qamsaxurdiya Moskvanın passiv müşahidəçilik mövqeyini tənqid atəşinə tutdu. Eyni zamanda 1990-cı il noyabrın 16-da Gürcüstanda abxazların, açarların və osetinlərin bir neçə gizli təşkilatlarının fəaliyyəti, o cümlədən "Adaemon Nikos" (xalqın sözü) seperatçı təşkilatın fəaliyyəti dayandırıldı. Bu məcburi tədbirlə yanaşı Gürcüstanda seperatizmin hərbi-siyasi mərkəzinə çevrilmiş muxtar qurumlar da ləğv edildi. Bu tədbir əslində zəruri tədbir idi. Ona görə ki, dövlət içərisində dövlət yaratmaq, dövlətin ərazi bütövlüyünü, iqtisadi və siyasi birliyinin qarşısını almaq üçün atılan ən cəsarətli addımlardan biri idi. Dövlətin ərazi bütövlüyünü qoruyub saxlamaq naminə Gürcüstan hökumətinin həyata keçirdiyi tədbirlərdən biri də Milli Qvardiyanın yaradılması idi. Belə ki, hələ 1990-cı il dekabrın 9-da SSRİ Daxili İşlər Nazirliyinin qoşunları Gürcüstana yeridilsə də, milli münaqişə regionlarında münaqişənin aradan qaldırılmasında heç bir iş görülməməsi, seperatçıların silah-sursatla təchiz edilmələrinin davam etdirilməsi Gürcüstan rəhbərliyini müəyyən tədbirlər görməyə vadar etmişdi.

Gürcüstanda etnik-milli münaqişələrin silahlı toqquşmalara, geniş əhatəli hərbi əməliyyatlara səbəb olmasını nəzərə alaraq 3 sentyabr 1992-ci ildə Moskvada Gürcüstandakı münaqişələrin tənzimlənməsi və atəşkəsə nail olmaq üçün məsələ müzakirə edildi. Lakin Moskva danışıqları ilkin mərhələdə ümidverici olsa da, döyüşlərin davam etməsini müşahidə edən BMT-nin Təhlükəsizlik Şurası problemlə əlaqədar olaraq 27 iyul 1993-cü ildə 849 №-li qətnamə, 1993-cü ildə 854, 858, 876, 881 və 892 №-li qətnamələr qəbul edilmişdir [12, 157]. BMT-nin Təhlükəsizlik Şurasının Gürcüstandakı etnik qrupların seperatçılığın və müharibənin şiddətlənməsinin qarşısının alınmasına istiqamətləndirilmiş 6 qətnaməsi, Ermənistanın

Azərbaycana qarşı apardığı işğalçılıq siyasəti, 1.000000-dan artıq azərbaycanlının vətənindən, tarixi torpaqlarından qaçqın düşməsini təsdiq edən 4 qətnamənin qəbul edilməsindən 27 il ötməsinə baxmayaraq, təəssüflər olsun ki, nə BMT-ni, nə də beynəlxalq təşkilatları narahat edir. Məhz bu səbəbdən Cənubi Qafqazda milli münaqişələr hələ öz həllini tapa bilmir. BMT-nin 1992-1999-cu illəri əhatə edən rəsmi hesabatında Cənubi Qafqazda, xüsusilə gürcü-abxaz milli münaqişə probleminə dair 36 dəfə müzakirə keçirilmiş, 36 qətnamə və qərar qəbul edilmiş, protokollaşdırılmış müraciətlər MDB dövlət başçılarına göndərilmişdir. Düzdür MDB sülhməramlı qüvvələrinin münaqişə bölgələrində yerləşdirilməsi haqqında 15 aprel 1994-cü ildə MDB başçılarının Məsləhət Şurasının Soçi müraciəti, 6 dekabr 1994-cü il Budapeşt sammiti və BMT-nin Təhlükəsizlik Şurasının 1995-ci il 971 №-li qətnaməsi Cənubi Qafqazda atəşkəsə nail olmaq, onu qismən azaltmaq üçün mahiyyət etibarilə mütərəqqi xarakter daşıyır, amma problem hələ də həll olunmamış qalmaqdadır. Bu qloballaşmış problemin mövcudluğu Cənubi Qafqazda iqtisadi, siyasi tərəqqini ləngidir, dünyaya inteqrasiyanın qarşısını alır, dünyadan təcrid amilini uzun müddətdir ki, regionda saxlayır, bəşəri ideyaların Cənubi Qafqaza və Cənubi Qafqazdan isə dünyaya idxal edilməsinin qarşısını alır.

Cənubi Qafqazda XX əsrin 80-90-cı illərində baş verən Ermənistan - Azərbaycan və Dağlıq Qarabağ münaqişəsi zamanı insan qırğını, dağıntılar və ziyanlar haqqında əsaslı faktları təqdim etdiyimiz zaman əsil obyektivlik bir daha sübut olunur. Məsələn, 1988-1994-cü illərdə Ermənistanın Silahlı Qüvvələrinin Azərbaycana qarşı işğala başladığı zamandan 1994-cü il mayın 12-də atəşkəs razılaşmasının əldə edildiyi dövrə qədər 150.000 yaşayış evi, 900 yaşayış məntəqəsi, 7 min ictimai bina, 1025 məktəb, 855 uşaq bağçası, 695 xəstəxana, 927 kitabxana, 40.000 muzey erməni vandalları tərəfindən dağıdılmış, Azərbaycanın işğala məruz qalmış əraziləri xarabalığa çevrilmiş, beynəlxalq nəzarətdən uzaq düşmüş, Dağlıq Qarabağ və ətraf rayonlar narkotik maddələrin əkilməsi və dövriyyəsi coğrafiyasına daxil olmuşdu.

Bununla yanaşı işğal altına düşmüş Dağlıq Qarabağ və ətraf rayonların ərazilərində antik dövrə aid Azərbaycan tarixi abidələrindən 701 YUNESKO-nun qeydiyyatına düşmüş tarixi abidə ya məhv edilmiş, ya da erməniləşdirilmişdi. Bunlarla bərabər Ermənistan tərəfindən işğal edilmiş Azərbaycanın tarixi torpaqlarında 57 məscid, 125 alban məbədi, 58 qədim arxeoloji insan məskənləri, 26 qala və qala divarları, 598 rabitə obyektləri, 2398 sənaye və kənd təsərrüfatı obyektləri, 5198 km avtomobil yolları, 286 km dəniz yolları, 348 körpü, 7568 km su xətləri dağıdılaraq və sökülərək materiallar Ermənistana qənimət kimi aparılmışdır. Ermənistanm Azərbaycana qarşı işğalçılıq siyasətinin tərkibində qarətçilik, talançılıq, qadınları, uşaqları girov götürərək təsərrüfatda işlətmək, insan alveri şəbəkəsinə qoşularaq bu çirkin əməllərini həyata keçirməkdən ibarət olmuşdu. Məsələn, ermənilər işğal etdiyi ərazilərdə ən çox qaz, elektrik, evlərin damlarına vurulmuş paslanmayan dəmirlər, qəbirüstü abidələrin qarət edilməsinə diqqət verirdilər. Onlar bu məqsədlə Azərbaycanın işğala məruz qalmış ərazilərində 2.000 km qaz xətləri, 76940 km elektrik xətti, 262.000 ha meşələr, 645500 ha əkin sahəsi, 163 faydalı qazıntı yatağı, 152 təbiət abidəsi,7 təbii göl, 29 suvarma sistemi, 224 (631 mln. kub metr) su anbarı ələ keçirmişdilər. Eyni zamanda Azərbaycanın Dağlıq Qarabağ bölgəsindən Ermənistanın işğalı nəticəsində 1992-ci ilin aprel ayından etibarən 1994-cü ilin may ayınadək 560 min nəfər azərbaycanlı işğal edilmiş rayonları tərk etmək məcburiyyətində qalaraq qaçqın həyatı yaşamağa məhkum edildi. Beləliklə, Ermənistandan qaçqın düşmüş azərbaycanlıların sayı 200.000, işğal edilmiş ərazilərdən məcburi köçkünlərin sayı 716.000 nəfərə, Ermənistanla sərhəd ərazilərdən köçürülən azərbaycanlıların sayı 110.612 nəfərə çatmışdı. Statistik məlumatlardan aydın olur ki, Ermənistan təcavüzü nəticəsində Azərbaycan tərəfdən həlak olanların sayı 20.000, əlil olanların sayı 50.000, itkin düşənlərin sayı isə 7000 nəfərə qədər olmuşdu. Ermənistan Dağlıq Qarabağın işğalını başa çatdırdıqdan sonra qədim Azərbaycan torpaqlarına, xüsusilə Dağlıq Qarabağa, Kəlbəcərə, Laçına, Qubadlıya, Zəngilana Livandan, Suriyadan, İraqdan erməniləri dəvət edərək məskunlaşdırmışdı. Təqribi hesablamalara görə Dağlıq Qarabağda və ona bitişik qonşu rayonlarda Ermənistanın xaricdən gətirib məskunlaşdırdığı adamların sayı 70 minə qədərdir. Kəlbəcərin İstisuyu erməni suyu adı altında Avropa və Şərq ölkələrinə satılır. Cənubi Qafqazın etnik-milli münaqişələrə, silahlı toqquşmalara və müharibələrə cəlb olunmuş Gürcüstan respublikası da XX

əsrin 80-ci illərindən etibarən süni yaradılmış problemlə üz-üzə qalmaqdadır. Belə ki, həm Azərbaycana, həm də Gürcüstana qarşı hazırlanmış "Parçala, hökm et" siyasəti nəticəsində Abxaziya seperatçıları ilə bərabər Cənubi Osetiya seperatçıları Gürcüstanın ərazi bütövlüyünü pozaraq Rusiyanın qəyyumluğuna keçdilər. Problemin obyektivcəsinə araşdırılması müasir dövrün qloballaşmış problem kimi hələ də aktualdır. Gürcü-abxaz münaqişəsinin tarixi köklərini xronoloji ardıcıllıqla araşdırarkən olduqca maraqlı faktlar ortaya çıxır. Belə ki, 1918-ci ildən 1995-ci ilədək 9 dəfə gürcü-abxaz münaqişəsi baş vermişdir ki, yalnız 1939-cu il və 1968-ci illərdə münaqişə qismən uzun müddət dayandırılmışdır. Münaqişə illərində, yəni 1918-1995-ci illər ərzində 495 silahlı toqquşma baş vermişdir. XX əsrin 80-90-cı illərində Cənubi Qafqazda baş verən və mərhələ-mərhələ davam edən münaqişələrin müharibəyə çevrilməsi nəticəsində Ermənistan Silahlı Qüvvələrinin Azərbaycana qarşı silahlı təcavüzü nəticəsində 30 min nəfər, gürcü-abxaz və gürcü-osetin münaqişəsinin müharibəyə çevrilməsində gürcülər tərəfindən qeyri-dəqiq məlumata görə 2008-ci il avqust döyüşünə qədər 12 min nəfər, abxazlardan 3500 nəfər, osetinlərdən isə 2700 nəfər insan həlak olmuşdu. Nəhayət, Cənubi Qafqazda uzunmüddətli və fasilələrlə davam edən müharibələrin dayandırılması üçün 1992-ci il Doqomıski razılaşmasının davamı olaraq 1994-cü il mayın 14-də Moskvada Atəşkəs haqqında razılaşma imzalandı. Zuqdididə, Qalidə, Yuxarı Kadorda BMT-nin 400 nəfərdən artıq hərbi və mülki nümayəndələri yerləşdirildi. Sonralar, yəni 2008-ci il avqustun 10-da BMT-nin Baş Katibi Pan Qi Munun Gürcüstanda gürcü-abxaz, gürcü-osetin və digər münaqişə tərəflərinə müraciəti oldu. Bütün hadisələrin gedişi göstərdi ki, ABŞ-ın, Fransanın və Rusiyanın problemə aid mövqe və münasibətləri fərqlidir. 26 avqust 2008-ci il tarixində Rusiyanın Abxaziyanın və Cənubi Osetiyanın müstəqilliyini tanıması Dağlıq Qarabağda da seperatçı rejimin işğalçılıq siyasətinə dolayı yolla bəraət qazandırmış oldu. Aparılmış obyektiv təhlillər deməyə əsas verir ki, ATƏT-in Minsk Qrupuna daxil olan dövlətlərin fəaliyyətsizliyi beynəlxalq səviyyədə tanınmalıdır. Cənubi Qafqazda mövcud olan etnik-milli münaqişələrin nizama salınması sərhədlərin tarixi bölgülərə uyğun bərqərar edilməsi müasir dünyanın tələblərinə uyğun tənzimlənməlidir. Azərbaycan Respublikasının Prezidenti Ali Baş Komandan İlham Əliyev Azərbaycanın tarixi torpaqları olan Qarabağı 30 illik işğaldan azad etməkdə Cənubi Qafqazın Azərbaycan ölkəsini BMT-nin dörd qətnaməsinə uyğun olaraq stabil regiona çevirdi. Ümumqafqaz evinin yaradılması uğrunda tarixi bir missiyanı yerinə yetirdi. Ümidvarıq ki, yaxın gələcəkdə Cənubi Qafqazın hər bir guşəsində sülh, əmin-amanlıq ideyaları zəfər çalacaq.

## ƏDƏBİYYAT


1. Çavçavadze İ.Q. "Erməni alimləri və fəryad edən daşlar". Bakı, 1995, 30 s.
2. Кавказский узел: М., 10.10.2006.
3. Мялго К.Т.Россия и последние войны XX века. М., «Веце». 2002 г. 171 с.
4. Зверев А. Этнические конфликт в Грузии. 1989-1994 гг. М.,1996. 193 с.
5. Mahmudov Y.M., Şükürov K.K. Azərbaycanın beynəlxalq münasibətlər və diplomatiya tarixi. 1638-1828 dövlətlərarası müqavilələr və digər xarici siyasət aktları. Bakı, Regionlarin ictimai birliyi, 2009, 512 s.
6. Musayev D. Ermənilərin azərbaycanlılara qarşı soyqırımının tarixi kökləri. Ermənistanın işğalçı siyasətinin iflası (Məqalələr toplusu). Bakı, 2019, s 10-13.
7. Nuruzadə Ş.C. Cənubi Qafqazda etnik-milli münaqişələrin tarixi kökləri. Filologiya məsələlərinə dair tarixi toplu. №1. Bakı, 2000.s. 57-58.
8. Nuruzadə Ş.C. Sovet siyasi sisteminin süqutundan sonra Cənubi Qafqazda milli münaqişələrin daha da gərginləşməsi. ADPU-nun nəşri. Humanitar pedaqoji, psixoloji elmlər seriyası № 1-2. Bakı, 1991, s. 122-131.
9. Nuruzadə Ş.C. SSRi-də sosial-iqtisadi, siyasi böhranın son həddə çatması və Müstəqil Dövətlər Birliyinin yaradılmasının obyektiv və subyektiv mahiyyəti ( XX əsrin 90-cı illəri. Bakı Avrasiya

Universiteti. “Sivilizasiya”, cild 6, №2. Bakı, 2017 (34). s, 158-166.
10. Nuruzadə Ş.C. Cənubi Qafqazda seperatizmin milli münaqişə mərhələsinə daxil olmasının obyektiv və subyektiv səbəbləri. ADPU-nun Xəbərləri, Bakı, 2009. s, 100-107.
11. Смум Д. Образ войны в 1990 годы. М., 1997, 157 с.

Rəyçi: Bakı Dövlət Universiteti
t.e.d., prof. Anar İsgəndərli